# HEYDƏR ƏLİYEV DEYİB Kİ...

## DÖVLƏTÇİLİK

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!

****

Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır.

****

Azərbaycan Respublikası milli dövlət quruculuğu yolunda uğurlar qazanaraq böyük gələcəyə doğru inamla addımlayır.

****

Böyük siyasəti kiçik hissələrə, xırda mənfəətlərə bağlamaq olmaz.

****

Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın.

****

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir.

****

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

****

Ədalətsizliklə ədalət bərpa etmək olmaz.

****

Müstəqillik yolu qədər çətin yol yoxdur.

****

Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir.

****

Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir.

****

Keçid dövrü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adam olsun.

****

Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.

****

Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir!



*Milli Lider Heydər Əliyevin cəmiyyətimizin hər bir sahəsini əhatə edən, müasir Azərbaycan gerçəkliyini, xalqımızın mədəni-mənəvi və intellektual həyatını əks etdirən qiymətli fikirləri hər birimizin gündəlik fəaliyyətində istinad etdiyimiz mənbə olmalıdır. Oxuculara təqdim etdiyimiz bu nümunələr Heydər Əliyevin ideya dünyasından müəyyən fikirləridir.*

***– Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.***

***– Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə mən özüm üçün başqa bir mükafat görmürəm.***

***– Bu siyasəti mən ona görə apara bilirəm ki, bu, mənim iradəmdir, bu, mənim həyatımın məqsədidir, mənasıdır.***

***– Mən öz üzərimə, dediyim kimi, böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimizi möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim.***

## ORDU QURUCULUĞU

Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

****

Silahlı Qüvvələrin yaranması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.

****

Biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycanın Milli Ordusu var. Biz özümüz-özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik.

****

Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

****

Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

****

Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin, dövlətimizin dayağıdır.

****

Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!

****

Ya ayağa qalxıb torpağımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı etiraf etməliyik.

****

Bütün qüvvələr ordu quruculuğuna səfərbər olunmalıdır.

****

Hərbi xidmət insanları daha da mətinləşdirir, daha cəsarətli edir, çətinlikləri aradan qaldırmaq keyfiyyəti aşılayır.

****

Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

****

Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir!

## TƏLTİF OLUNDUĞU ORDEN, MEDALLAR VƏ FƏXRİ ADLAR

- "1941–1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı – 09.05.1945
- "1941-1945-ci il Böyük Vətən müharibəsində əməyinə görə" medalı – 06.06.1945
- "Əmək rəşadətinə görə" medalı – 25.06.1945
- "Sovet ordusunun və donanmasının 30 illiyi" medalı – 22.02.1948
- "Lenin ordeni" – 25.08.1971, "Lenin ordeni" – 08.05.1973,
- "Lenin ordeni" – 27.02.1976
- "Lenin ordeni" və "Oraq və çəkic" qızıl medalı – 24.08.1979
- "Lenin ordeni" və "Oraq və çəkic" qızıl medalı – 07.05.1983
- Ukraynanın "Yaroslav Mudrıy" ordeni – 24.03.1997
- Türkiyənin "Dövlət nişanı" ordeni – 07.05.1997
- Qazaxıstanın "Astana" medalı – 10.06.1998
- "Elm və təhsilin inkişafına görə beynəlxalq orden" – 14.12.1998
- Ukraynanın "Qlorya populi" qızıl ulduzu – 18.05.2001
- Gürcüstanın "Qızıl dəri" ordeni – 29.09.2001
- "Qızıl bayraq" fərqlənmə nişanı – 03.05.2002
- Rusiyanın "Andrey Pervozvannı" ordeni – 09.06.2002
- Beynəlxalq İhsan Doğramacı Fondu: "Qızıl medal" – 27.06.2002
- Rusiyanın "Magistralın 100 illiyi" medalı – 22.10.2002
- Rusiya: "Beynəlxalq təhlükəsizlik xidmətlərinə görə" medalı – 20.02.2003

### FƏXRİ ADLAR

- "Sosialist əməyi qəhrəmanı" – 24.08.1979
- "Sosialist əməyi qəhrəmanı" – 07.05.1983
- "Kiyevin fəxri qonağı" – 25.03.1997
- Ankara İş Qadınları Asossiasiyası: "1997-ci ilin görkəmli dövlət xadimi" – 29.11.1997
- Ədirnə: "Qırxpınar güləş yarışlarının baş ağası" – 10.02.2003

### "FƏXRİ DOKTOR" (FƏXRİ PROFESSOR) DİPLOMU

- Ankara Hacıtəpə Universiteti – 09.02.1994
- Tbilisi Dövlət Hüquq Akademiyası – 29.03.1997
- İzmir "9 eylul" Universiteti – 07.05.1997
- Qazaxıstan Dövlət Universiteti – 08.05.1997
- Daşkənd Dövlət Universiteti – 19.06.1997
- İzmir "Egey" Universiteti – 19.06.1997
- Ərzurum Universiteti – 24.03.1998
- İsparta Universiteti – 01.05.1998
- Ankara Universiteti – 16.03.2001
- Moskva Dövlət Universiteti – 25.01.2002
- Qars "Qafqaz" Universiteti – 28.06.2002
- Moskva Dövlət Beynəlxalq Münasibətlər Universiteti – 24.09.2002
- Qırıqqala Universiteti – 01.04.2003

### MÜKAFATLAR

- Qars Bələdiyyəsi: "1997-ci il insan hüquqları müdafiəçisi və dövlət xadimi" – 12.12.1997
- Türkiyə Yazarları və Sənətçiləri Fondu: "Türk dünyası qarşısında xidmətlərinə görə" – 26.01.1998
- "Dünyanın Adamı" (Türkiyə) – 13.02.1998
- Türk sənayeçiləri və iş adamları fondu "1997-ci il insan hüquqları müdafiəçisi və dövlət xadimi" – 14.02.1998
- Türk qəzetçiləri və yazarları fondu: "Türk dünyasının birliyinə görə" – 22.05.1998
- Türkiyənin Bayqurd vilayətinin "Dədə Qorqud" yubileyinin Təşkilat Komitəsi tərəfindən "Dədə Qorqud" mükafatı – 05.09.1998
- İzmir Bələdiyyəsi: "İnsan hüquqları" mükafatı – 05.09.1998
- Türkiyənin İpək Yolu Fondu: "İpək Yolunun xidmətlərinə görə" – 05.09.1998
- Türkiyənin İpək Yolu Fondu: "1998-ci ilin görkəmli dövlət xadimi" – 03.02.1999
- Azərbaycan Əsilzadələr Məclisi üzvünün 1 nömrəli şəhadətnaməsi – 07.07.1999
- Atatürk Beynəlxalq Sülh mükafatı – 01.11.1999
- "Jurnalistlərin dostu" (Azərbaycan) – 22.03.2002
- Y.V.Andropov adına mükafat (Rusiya) – 04.04.2003
- Türkiyənin "Baş müəllim Atatürk" mükafatı – 23.05.2003
- ANİKOD-un: "Üstün xidmət və başarı" – 27.06.2002
- TÜSİAB-ın "Türk dünyasının 2001-ci il xüsusi mükafatı" – 27.06.2002
- Türkiyənin "Samanyolu" televiziyası kanalının "Medianın dostu" mükafatı – 15.10.2002
- ANS şirkətlər qrupunun və Çingiz Mustafayev adına fondun təsis etdiyi: "2002-ci ilin adamı" – 11.01.2003

### HEYDƏR ƏLİYEVİN ADI VERİLMİŞDİR:

- Rusiyanın "Kosmos–Yer" elmi-texniki mərkəzi: Heydər Əliyevin adının bürc ulduzuna verilməsi haqqında sertifikat – 16.05.1998
- Ulduzların qeydiyyatı üzrə beynəlxalq təşkilat: Heydər Əliyevin adının bürc ulduzuna verilməsi haqqında sertifikat – 30.05.1998.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamı və 10 mart 2004-cü il tarixli fərmanı ilə Ümummilli Liderimiz Heydər Əliyevin adı əbədiləşdirilmişdir:
- Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilərək, onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.
- Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı təsis edilmişdir.
- Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" xatirə memorial komplekslərinin yaradılması qərara alınmışdır.
- Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeninin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmuşdur.
- Azərbaycan Ali Hərbi Məktəbinə, Bakı Beynəlxalq Hava Limanına, Bakı Dərin Özüllər Zavoduna, Respublika Sarayına, Bakı şəhərindəki idman-konsert kompleksinə Heydər Əliyevin adı verilmişdir. Böyük Qafqaz sıra dağlarında zirvə, Azərbaycanda və Türkiyədə parklar, xiyabanlar, bulaqlar, abidələr və s.
- Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində və Azərbaycan Respublikasının şəhər və rayonlarında küçə və meydanlara Heydər Əliyevin adı verilmişdir.
- Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adı verilmişdir.
- İctimai əsaslarla Heydər Əliyev Fondu yaradılmışdır.

## VƏTƏNPƏRVƏRLİK

Vətənpərvərlik insanın daxilindəki duyğularıdır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır.

****

Vətənini müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.

****

Azərbaycan xalqı əyilməzdir, yenilməzdir, qəhrəmandır!

****

Azərbaycanlılar! Harda olursunuzsa-olun, hansı ölkədə yaşayırsınızsa-yaşayın, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisiniz!

****

Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir.

****

Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

****

Bizim hamımızın bir Vətəni var-bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.

## MƏDƏNİYYƏT

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

****

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə inkişaf edəcəkdir.

****

Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır.

****

Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

****

Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

## ANA DİLİMİZ

Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir!

****

Hər bir xalqın milliliyini, mənəvi dəyərini yaşadan, inkişaf etdirən onun dilidir.

****

Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

****

Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir.

****

Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik!

****

Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.

****

Cəlil Məmmədquluzadənin ən dəyərli cəhətlərindən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətləridir.

***Xüsusi buraxılışın hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub***

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

ƏSGƏR

№ 09 (500)
10 may
2017-ci il

XÜSUSİ BURAXILIŞ

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# MÜSTƏQİL AZƏRBAYCANIN QURUCUSU!

***Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş dahi şəxsiyyətdir. Ən çətin anda, ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergi, qabiliyyətdir.***

O, sözün həqiqi mənasında, böyük azərbaycanlıdır. Azərbaycan xalqının misilsiz təəssübkeşi, XX əsrin 90-cı illərində yenidən müstəqilliyə qovuşmuş dövlətçiliyimizin xilaskarıdır. Həm də müasir Azərbaycanın qurucusudur.

Heydər Əliyevin dərindən düşünülmüş uzaqgörən planları və yorulmaz fəaliyyəti sayəsində ötən əsrin 70-ci illərində respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsal sahələri yaradıldı. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Həmin illərin Azərbaycanı nəhəng tikinti meydanını xatırladırdı. Həmin dövrdə əldə olunan ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılmasına nail olması idi. Buna görə də XX yüzilliyin 90-cı illərində böyük Sovetlər Birliyi parçalanarkən məhz Heydər Əliyevin uzaqgörən, gərgin, səmərəli və cəsarətli dövlətçilik fəaliyyəti nəticəsində Azərbaycan müstəqil yaşamağa tamamilə hazır idi.



1990-1993-cü illər Azərbaycanın müstəqilliyi təhlükə altında idi. Vətənin ümid çırağı yalnız Heydər Əliyev idi. 1990-cı il yanvarın 21-də həyatını təhlükə qarşısına qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının qurtuluş mübarizəsinin önünə keçdi. 1990-cı il iyun ayının 20-də Bakıya gələn, lakin o vaxtkı rəhbərlik tərəfindən qısqanclıqla qarşılanan Heydər Əliyev 2 gün sonra Naxçıvana getməli oldu. Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı. O zaman milli müstəqilliyimizin ilk addımları da məhz burada atıldı. Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, Naxçıvan Ali Sovetinin Milli Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının bayrağı kimi qəbul edilməsi və qaldırılması, Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması SSRİ-nin saxlanılması barədə referendumdan imtina edilməsi, 1990-cı ilin 19-20 yanvar faciəsinə siyasi qiymət verilməsi, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi barədə tarixi qərarlar çıxarılması, Yeni Azərbaycan Partiyasının yaradılması, Ulu Öndərin Azərbaycanın xilası naminə, xalqın tələbi və istəyi ilə Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi dahi siyasətçinin böyük siyasətə qayıdışının əsasını qoydu.

1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabr ayının 3-də Azərbaycan Respublikası Prezidenti seçildi. Heydər Əliyevin respublika rəhbərliyinə bu böyük qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətlərdən xilas etdi. Müdrik rəhbərin qısa zaman kəsiyində həyata keçirdiyi tədbirlərlə cəbhə xəttində atəşkəsə nail olundu, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Bununla da respublika ərazisində sabit, normal həyat bərqərar oldu.

Heydər Əliyevin həyatı və fəaliyyəti öz vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə xidmətin nümunəsi kimi daim yaşayacaq. Biz bu gün böyük iftixar, qürur hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycan dövləti Ulu Öndərin şah əsəridir, onun öz xalqı qarşısında əvəzsiz tarixi xidmətidir. Fakt budur ki, Heydər Əliyev bütün fəal həyatı boyu belə bir məfkurə ilə yaşadı, Vətəni, xalqı üçün nə mümkündürsə etdi.

O, çıxışlarının birində demişdir: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".

Milli Lider Heydər Əliyevin bu fikirləri zaman durduqca öz qüvvəsində qalacaq. Çünki Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan çox güclü və dərin özüllər üzərində qurulub.

## ÖLMƏZLİK NƏĞMƏSİ

*Sən getdin o məğrur, şux yerişinlə,*
*Qüdrətin önündə zaman dayandı.*
*Bir xoş təbəssümün, bir gülüşünlə,*
*Sən getdin yollar da nura boyandı.*
*Nəfəsin isidir qarlı qışı da,*
*Bircə baxışınla yaşa döndərər.*
*Sərtliyin yumşaldır ən sərt daşı da,*
*Şimşəyi ram edər, odu söndürər.*
*Səsin zirvələrə ucalıb gedər,*
*Tufanlar səngiyər sən danışanda.*
*Müdriksən - ən dərin dayaqlar qədər,*
*Vulkana dönürsən səbrin daşanda.*
*Səninlə döyünür qəlbimiz hər an,*
*Hər sözün, söhbətin dilimizdədir.*
*Araya ayrılıq salsa da zaman,*
*Əbədi yaşayan ruhun bizdədir.*
*Sən o məğrur, şux yerişinlə,*
*Səslədin sən bizi böyük sevgiylə,*
*Ölməzlik qazandın sən gedişinlə,*
*Hər zaman bizimlə qalasan deyə!*
*Parçalan ey zülmət, çəkil ey gecə,*
*Günəşə qovuşmaq istəyirəm mən!*

**Leyla Əliyeva**

## XALQ HEYDƏR SÖYLƏYƏCƏK

*Gözlərində açılıb bu millətin səhəri,*
*Sənin adınla bağlı bu xalqın hər zəfəri.*
*Qədəmin dəyən yerdə səhralar da gül açar,*
*Gülüstana çevrilir yurdun kəndi, şəhəri.*
*Günəş doğur elə bil, harda çəkilir adın,*
*Dosta fəxarət gəlir, gözü kor olur yadın.*
*Azərbaycan deyəndə səni düşünürük biz,*
*Azadlığı, inamı xalqa sən bağışladın.*
*Sən bu çətin zamanda gücümüz, qüdrətimiz,*
*Sən bizim bu dünyada ən böyük sərvətimiz.*
*Millətin imzası var imzaların içində,*
*Sənə halaldır, halal ülvi məhəbbətimiz.*
*Sən elə bir zirvəsən küləklər neyləyəcək,*
*Dünənim, bu günümsən, səninlədir gələcək.*
*Nə qədər Azərbaycan, nə qədər bu millət var,*
*Heydər "Xalqım" deyəcək, xalq "Heydər" söyləyəcək!*

**Baba Vəziroğlu**

# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ MİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİM KEÇİRİLİB



***May ayının 5-də Daxili Qoşunların Baş İdarəsində dünyanın nadir şəxsiyyətləri ilə bir sırada dayanan, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, Milli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş təntənəli mərasim keçirilib.***

Mərasimdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda "Əliyevşünaslıq" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Ədalət Qasımov iştirak edib.

Əvvəlcə Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Ulu Öndər Heydər Əliyevin həyatından bəhs edən filmin nümayişindən sonra "Heydər Əliyevin Azərbaycanın dünya dövlətləri arasında nüfuzunun formalaşmasında rolu" mövzusunda çıxış üçün söz Ə.Qasımova verilib.

Bu əlamətdar tarixin təkcə respublikamızda deyil, dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tərəfindən təmtəraqla qeyd edildiyini diqqətə çatdıran məruzəçi bildirib ki, Azərbaycanın milli dövlətçilik ənənələrinin formalaşması və inkişafı məhz dahi lider Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd olunub ki, XX əsrin sonlarında yenidən müstəqilliyini bərpa etmiş ölkəmizdə hüquqi, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində həyata keçirilən siyasi islahatlar strategiyasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: "Heydər Əliyev dünyanın nadir, parlaq şəxsiyyətlərdən biri olmaqla yanaşı, Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik etmək, xilaskarlıq və quruculuq kimi məsuliyyətli missiyaları öz üzərinə götürmüş, bu missiyaları şərəflə yerinə yetirərək xalqımızın tarixində silinməz izlər qoymuşdur."

Azərbaycanın milli yüksəlişini, qazanılan uğurları, ölkəmizin siyasi, iqtisadi cəhətdən qüvvətlənərək Cənubi Qafqazın lider dövlətinə çevrilməsini Heydər Əliyevin zəngin fəaliyyəti, xarizmatik liderlik keyfiyyətləri, idarəçilik qabiliyyəti ilə əlaqələndirən Ə.Qasımov onu da əlavə edib ki, dahi liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra milli, mədəni dəyərlərin, mənəvi irsimizin qorunub saxlanılmasına, Azərbaycan dilinin, mədəniyyətin müxtəlif sahələrinin, idmanın, təhsilin, o cümlədən milli kadr probleminin həlli istiqamətində mühüm addımlar atılmağa başlanıldı.

Sonda Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, bu gün Azərbaycan dövlətinin müstəqil siyasət həyata keçirdiyi, iqtisadiyyatımızın günü-gündən inkişaf etdiyi də fəxrlə vurğulanıb.

Tədbir Daxili Qoşunların Nümunəvi-göstərici hərbi orkestrinin solistlərinin ifasında musiqi nömrələri ilə davam etdirilib.

**Mətbuat xidməti**

## ULU BİR SƏRKƏRDƏ, ULU BİR ÖNDƏR

*Gəlişinlə qurtulubdur bu vətən,*
*Sən oldun bu xalqa ümid və güvən.*
*Sən oldun dar gündə köməyə yetən,*
*Ulu bir sərkərdə, ulu bir öndər.*
*Ucaltdı hər yerdə bayrağımızı,*
*Yazdı tarixlərə ad - sanımızı.*
*Tanıtdı dünyada varlığımızı,*
*Ulu bir sərkərdə, ulu bir öndər.*
*Hara baxırsansa nişanələri,*
*Özündən sonrakı abidələri*
*Bizləri tərk etmir xatirələri*
*Ulu bir sərkərdə, ulu bir öndər.*
*Heydər adı dastanlara çevrildi,*
*Onun qüdrətini yer üzü bildi.*
*Allah onu yurdumuza yetirdi,*
*Ulu bir sərkərdə,ulu bir öndər.*
*Zəhmətiylə dirçəltdi yurdunu,*
*Gücləndirdi yenilməyən ordunu.*
*Ödəyibdir min rəhbərin borcunu,*
*Ulu bir sərkədə, ulu bir öndər*
*Bu idi məqsədi vətən ucalsın,*
*Oğulları düşmənləri dağlasın.*
*Analar gözünü sevinc ağlatsın,*
*Ulu bir sərkərdə, ulu bir öndər.*
*Əlindən gələni xalqına etdi,*
*Ağ günə çıxarıb dünyadan getdi.*
*Qoymadı desinlər yolunuz bitdi,*
*Ulu bir sərkərdə, ulu bir öndər.*
*Özündən sonra bir davamçı qoydu,*
*Onunda bu yolu Heydər yoludu.*
*Haqqa qovuşsa da xalqın düşünər,*
*Ulu bir sərkərdə, ulu bir öndər.*

***Qabil Ədalət***

# BÖYÜK ÖMRÜN DASTANI



*Əlirza kişi və İzzət xanımın ailəsi. Soldan ikinci - balaca Heydər*

**Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. Naxçıvanlı hesab olunsa da valideynləri - Əlirza kişi ilə İzzət xanımın əsilləri Qərbi Azərbaycanlıdır.**

Əliyevlər nəslinin əsasını qoymuş əcdadların qədim Zəngəzur dağlarının döşündə məskunlaşma şəraiti barədə çox az şey məlumdur. Onların kökü Comərd və Alagöz Məhəmməd adlı iki qardaşdan başlayır.

Heydər Əliyevin əcdadları haqqında akademik Budaq Budaqov belə yazır: ***"Comərdlilərin kökü Qarabağ hökmdarı İbrahim xanın hakimiyyəti illərinə gedib çıxır. İbrahim xanın ordusundan ayrılan bir qrup əsgər və zabit məskunlaşmaq üçün münasib torpaq axtarırdı. Bu torpaq təsərrüfat üçün yararlı olmaqla yanaşı, yaşayış üçün də təhlükəsiz yer olmalı idi. Bu səbəbdən Comərdli kəndini dağın sıldırım yamacında, ətraf dərə və biçənəklərin, otlaqların aydın göründüyü yerdə salmışdılar".***

Heydər Əliyevin əcdadlarından kiminsə görkəmli hərbi xadim olması və "saray intriqaları ucbatından Zəngəzur dağlarına çəkilməsi" barədə Fatma Abdullazadənin bioqrafik "Doğulmaq anı" oçerkində də bəhs olunur.

**Aradan iki yüzillik keçəndən sonra əcdadların "hərbçilik" geni üzə çıxdı: general mundiri ulu babasınınkı kimi yaşılımtıl-ala gözləri olan enlikürək, qamətli Heydər Əliyevə çox gözəl yaraşırdı.**

Ümumiyyətlə, Heydər Əliyevin nəslində cəsur, igid döyüşçülər çox olub. XX əsrin əvvəllərində bu qədim nəslin kişilərinin yarıdan çoxu erməni quldur dəstələrinin Zəngəzura basqını zamanı döyüşlərdə həlak olmuşdu. XX əsrin sonlarında onların xələflərindən olan Qarabağ müharibəsi cəbhəsində döyüşmüş iki zabitə - Aqil Quliyevə və Fəxrəddin Nəcəfova isə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Əlirza kişinin ata-babası imkanlı adamlar idi. Bunu onların kərbəlayi olması da sübut edir. O zamanlar Kərbəlaya getmək hər adamın işi deyildi. Bu, yalnız varlı-karlı, imkanlı müsəlmanlara nəsib olurdu.

Heydər Əliyevin əmisi Zeynalabdinin oğlu Süleyman Əliyev: "Atam 1950-ci ildə, mənim on bir yaşım olanda dünyasını dəyişib, odur ki, onun söhbətlərini çox yaxşı xatırlayıram. Məsələn, atam danışırdı ki, ulu babamız, müasir dillə desək, Pənahəli xanın müdafiə naziri olub və Şuşada yaşayıb. Hakimiyyət İbrahim xanın əlinə keçəndən sonra o, istefaya çıxaraq Comərdliyə köçüb.

Babamız Cəfər iki dəfə Kərbəlaya ziyarətə gedib, onu Kəbleyi Cəfər deyə çağırırdılar. Hündürboylu, yaraşıqlı kişi idi. Heydərlə Cəlal ona çəkiblər".

O illər Bakıda neftlə bağlı böyük canlanma yaranmışdı, buruqlarda işçi qüvvəsi çatışmırdı, Əlirza isə işlək və bacarıqlı adam idi. O, erkən yaşlarında Narıngül adlı həmkəndlisi ilə evlənmiş, 1907-ci ildə Həsən adlı ilki, 1911-ci ildə isə Hüseyn dünyaya gəlmişdir. Odur ki, o, artan külfətini dolandırmalı idi. 1897-ci ildə Bakı-Culfa dəmir yolu açıldı, bu da Bakı quberniyası ilə təkcə Naxçıvanın yox, Qərbi Azərbaycanın da ticari-iqtisadi və mədəni əlaqələrinin inkişafına təkan verdi. Əsrin əvvəllərində qazanc dalınca yüzlərlə gənc sisiyanlı Naxçıvandan Bakıya yollanmışdı.

1918-ilin yay və payız mövsümü ərzində Zəngəzur qəzasının 115 kəndi dağıdılıb məhv edilmişdi. Onların arasında Heydər Əliyevin doğma yurdu Comərdli kəndi də vardı. Həmin kəndin erməni quldurları tərəfindən viran qoyulması barədə "Azərbaycan" qəzetinin 1918-ci il 13 noyabr tarixli sayında yazı dərc olunmuşdu.

****

Heydər Əliyevin qardaşı Aqil Əliyev isə nəslin faciəli aqibəti barədə anasının söhbətlərini belə xatırlayır: "Kəndimiz bir tərəfdən amfiteatr şəklində dağlarla əhatə olunmuşdu. Ovalığa, ordan da çaya yalnız bir çıxış vardı. Anam danışırdı ki, 1918-ci ildə Andranikin ordusu kəndi tamamilə əhatəyə aldı. Kim bacardısa, mühasirədən çıxa bildi. Nəslimizin ağsaqqalları qırıldılar. Anamın yeddi qardaşından biri də salamat qalmadı. Atamın da bir neçə qardaşından bircə o özü və Zeynalabdin əmim sağ qaldı. **Əlirza əmi o vaxt Bakıda idi. Bakıdan Naxçıvana gələn qatarlar Tiflisdən və Yerevandan keçirdi. O eşitmişdi ki, Zəngəzurda talanlar olub, bizim yerlərdə Andranikin dəstələri vəhşiliklər törədib. Doğma yurda aparan bütün yolları erməni bandaları əhatəyə almışdı. Ona görə də öz ailəsini yalnız iki il keçəndən, sovet hakimiyyəti qurulandan, Zaqafqaziyada ehtiraslar səngiyəndən sonra tapa bildi. Əlirza əmi qatara minib Tiflisə qədər getdi, Yerevanda isə onu tutub saxladılar. Xeyli müddət yoxladılar, əzab verdilər. Nəhayət, buraxdılar. Naxçıvana gəlib, uzun axtarışlardan sonra qardaşını tapdı".**

Qardaşının Comərdlidəki faciələri demək olar ki, bütün nəslin qırılıb-çatılması barədə söhbətlərini eşidəndə Əlirzanın hansı hisslər keçirdiyini və nə hala düşdüyünü təsəvvür etmək çətin deyildi. İntizarında olduğu uşaqları ilə görüşün sevinci arvadının və körpə qızının həlak olması xəbərindən qüssəyə döndü. Dəhşətli hərc-mərclik, fəlakət dövrü onun ürəyində sağalmaz yaralar açdı. Ağır işə, hüznlü xatirələrin ağırlığına dözə bilməyən ürəyi 1943-cü ildə əbədilik susdu. Heydər Əliyevin atası nisbətən cavan yaşlarında, heç altmış yaşa çatmamış dünyadan köçdü.

****

O illər Naxçıvan Zəngəzur qaçqınları ilə dolmuşdu. Əlirza kişi tez-tez qonşu kəndlərdə yaşayan yerliləri ilə rastlaşırdı. Bir-birindən hal-əhval tutandan sonra hərisliklə sorğu-sual edirdilər. Hər kəs öz yaxınlarını, doğmalarını, qohum-qardaşını axtarır, möcüzə baş verəcəyinə ümid bəsləyirdi. Bəlkə kimsə xilas olub, cəhənnəmdən çıxa bilib?

Bir gün bazarda həmkəndlisi, həm də uzaq qohumu olan (Comərdlidə hamı bir-birinin qohumu idi) İzzətə rast gələndə Əlirzanın gözləri sevincdən yaşardı. Qadını evlərinədək ötürməyi qərara aldı. Onlar şəhərin dar, daş-kəsəkli küçələri ilə tələsmədən addımlayırdılar. Əlirza elə hey boğazına yığılan qəhəri udaraq, İzzətin üzləşdiyi məşəqqətlər, məhrumiyyətlər barədə kədərli, qəmli-qüssəli söhbətini dinləyirdi. O, yanınca addımlayan iri, yaşılımtıl-boz gözləri olan bu girdəsifət, xoşsimalı göyçək gəlinin ərini çox yaxşı tanıyırdı. Comərdlinin və Urudun ağsaqqalları Əlirza ilə Əbülfəzin dost olduqlarını, hətta bir müddət Bakıda neft mədənlərində birgə çalışdıqlarını yaxşı xatırlayırlar. Ermənilərin Zəngəzura hücumu ərəfəsində Əbülfəz doğmaları üçün darıxıb Comərdliyə gəlir. Sən demə, əcəl onu çəkib aparırmış. Qanlı qarşıdurmada İzzət, demək olar ki, bütün yaxınlarını: atasını, anasını, ərini, qardaşlarını itirmişdi. Heydər Əliyevin bacısı Şəfiqə xanım öz kitabında yazır ki, yalnız aradan 15 il keçəndən sonra anası öz qardaşı uşaqlarını - Məsməni, Səkinəni, Rzaqulunu, Humayı... axtarıb tapdı. İzzət xanım onları öz böyük ailəsinə qəbul etdi və onlar faktiki olaraq ona həyatdan erkən köçmüş bacı-qardaşlarını əvəz etdilər.

Əlirza həmkəndlisinə tez-tez baş çəkirdi. Özünün dolanışığı çətin olsa da bacardığı qədər tənha qalmış dul qadına köməklik göstərir, qızı Suraya pay gətirir, könlünü şad edirdi. Bir ildən sonra isə Əlirza İzzətə ailə qurmağı təklif etdi. Artıq İzzət də bu az danışan, başını qürurla dik tutan, təmkinli kişiyə möhkəm tellərlə bağlanmışdı. Onun oğulları Həsəni və Hüseyni də öz doğma balaları kimi sevmişdi. 1922-ci ilin yayında Əlirza kişi və İzzət xanım naxçıvanlı Nəcəf kişinin evində birotaqlı mənzil kirələyib xoşbəxt həyat sürmək ümidi ilə bir ailədə birləşdilər.

****

Onları nakam taleləri, ümumi dərdsərləri birləşdirirdi, bir-birlərinə arxa və dayaq olurdular, yetim qalmış uşaqlarını, özününkü, ya özgəninki deyə fərq qoymadan böyüdürdülər.

**Və bu əsrlərdən qalma mənəvi ehkamlar, yaxının ağırlığını öz çiyinlərinə götürməyə hazır olmaq, zəifə kömək olub, onu qayğıyla isitmək tamamilə təbii hal kimi qəbul olunurdu. Hər halda balaca Suraya atalıq edən Əlirza kişinin alicənablığı və ya qadın nəvazişinin həsrətində olan oğlan uşaqlarının dərhal "ana" deyib çağırdıqları İzzətin dözümlülüyü heç kimdə təəccüb doğurmurdu.**

**Bu, bizə - XXI əsrin adamlarına, əksər hallarda ikinci uşağı "əlavə yük" hesab edərək ondan imtina edən cavanlara Əlirza ilə İzzətin addımı qəhrəmanlıq kimi görünə bilər. O illərdə isə çoxuşaqlı ailələr Azərbaycanda adi hal hesab olunurdu.**

**1923-cü il mayın 10-da Əliyevlərin ailəsində dördüncü uşaq dünyaya gəldi. Əlirza kişi uşağı İzzət xanımın xahişi ilə onun Zəngəzurda həlak olmuş sevimli qardaşının şərəfinə Heydər adlandırdı. Heydər bu yeni ailənin ilk övladı idi və bu, onun ailədəki xüsusi yerini müəyyən edirdi. Heydər Əliyevin kiçik bacısı Rəfiqə xanım xatirələrində qeyd edir: "Anam Heydəri çox sevirdi, onu hamıdan ayırırdı, ona xüsusi diqqət yetirirdi. Bu münasibət bizdə qısqanclıq, həsəd doğurmur, əksinə, bizə də sirayət edirdi. Biz ona pərəstiş edirdik".**

****

Böyük oğlanları Heydər və Aqil dünyaya gələndən sonra Əlirza kişi yenə də Bakıya yollandı. 1930-cu ilədək o, neft mədənlərində qazmaçı işləyərək qazancını ailəsinə göndərirdi.



*Heydər Əliyev anası, qardaşı və bacısı ilə*

Bir qədər pul yığandan sonra ər-arvad Zaviyə məhəlləsində xudmani bir ev aldılar. Heydər Əliyevin uşaqlıq illəri bu məhəllədə keçib. Ömrünün qürub çağında o, uşaqlıq çağlarının şahidi olan küçələri belə xatırlayırdı: "Puşkin küçəsi budur. Bu küçə axıra qədər, Şahab məhəlləsinə qədər Puşkin küçəsidir. Özü də deyə bilərəm ki, Puşkin küçəsi yuxarıdan Əlixan məhəlləsindən gəlib keçir və Şahab məhəlləsinin axırında qurtarır. Mən sonralar bəzən deyirdim ki, bu küçəyə Puşkinin adı nə vaxt verilibdir. Puşkinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvanın mütəfəkkir adamları, gərək ki, o vaxt Sidqi, başqa bir-iki nəfər də olmuşdu, şairə öz münasibətlərini bildirərək bu böyük küçəni Puşkin küçəsi adlandırmışlar. Mən də burada doğulmuşam. Puşkin küçəsi ilə gedəndə, balaca bir döngə vardı, elə idi ki, iki adam bir-birinin yanından keçəndə toqquşurdu. Bu bir dar küçə idi, adı da "Dar küçə" idi. Bu küçəyə heç fayton və araba da girmirdi. Orada atamın balaca bir həyəti var idi, mən orada doğulmuşam. Allaha şükürlər olsun ki, o yer qaldı. Düzdür, bir az dağılmışdı və mən 1990-cı ildə burada olanda atamın yurdunu abadlaşdırdım. Mən buraya gələndə elə orada qalıram. Mən buranı sevirəm. Çünki orada doğulmuşam".

**Sonralar, qırxıncı illərin əvvəllərində Heydər Əliyev özü üçün ayrıca otaq düzəldərək, tikiliyə artırmalar etmişdi. Doğrudur, otaq çox balaca alınmışdı. Naxçıvanlı ağsaqqallardan biri - Fikrət Qədimov onun tikintisi ilə bağlı əhvalatı təbəssümlə xatırlayır: "Onun arvadı Müzəyyən, anası Ələviyyə İzzət xanımla çox yaxın rəfiqə imişlər. Yaxşı xatirimdə deyil, ya 1942-ci, ya da 1943-cü ildə Heydər evlərinin böyründə ayrıca bir otaq tikməyi qərara aldı. O, artıq yaraşıqlı bir oğlan olmuşdu, NKVD-də onunla birlikdə işləyən dostları yanına gəlib-gedirdi. Ancaq həyətdə tikinti üçün yer çox az idi. Həyətin o biri tərəfində qonşuluqda isə Səkinə adlı yaşlı qadın yaşayırdı. Qayınanamla arvadım da daxil olmaqla bütün qonşular həmin qadını dilə tutdular ki, öz torpaq sahəsindən bir qədər ayırıb Heydərə versin ki, otaq bir qədər böyük alınsın. O isə heç cür razılaşmırdı, çox qəlbiqara adam idi. Heç bir metr də yer vermədi. Ancaq Heydər yenə də onun yaşına hörmətlə yanaşır, pul qazanmağa başlayanda ona hədiyyələr alırdı".**

Ümumiyyətlə, Əliyevlər qonşularla çox səmimi münasibətdə olublar. Burada hamı bir-biri haqqında hər şeyi bilir, demək olar ki, böyük bir ailə kimi yaşayırdılar.

****

Əliyevlərin həyəti böyük olmasa da səliqəli idi. İzzət xala həyətdə ləklər salıb, göyərti - göy soğan, keşniş, şüyüd, cəfəri əkmişdi. İzzət xanımın qızı Şəfiqə xatırlayır: "Anam həyətdə divar boyu qızılgül kolları əkmişdi. Əsl qızılgül itburnu çiçəyi kimi beş ləçəkli olur. Ondan gülab çəkmək, mürəbbə bişirmək üçün istifadə edərdik. Evimizdən həmişə qurudulmuş qızılgül ləçəkləri - nin və gülabın ətri gəlirdi. Anam ləçəklərdən gül mürəbbəsi bişirərdi".

****

Qızılgüllərə məhəbbət Heydər Əliyevi bütün həyatı boyu müşayiət etdi. O, respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda, ilk növbədə, şəhər rəhbərliyinə Bakıda çoxlu qızılgül kolları basdırmağı tapşırmışdı. Bir dəfə Bakı Şəhər İcraiyyə Komitəsinin sədri Aydın Məmmədov "birinci"nin qəbulunda şikayətlənmişdi: "Meydanlarda, parklarda, xiyabanlarda qızılgüllər əkirik, camaat isə kolları qırır, gülləri oğurlayır." Heydər Əliyev isə ona belə demişdi: ***"Eybi yoxdur, sən əkməyində ol, insanları gözəllik görməyə alışdır. Axır ki, onlar parkları viran qoymaqdan bezəcəklər".***

**(materialın hazırlanmasında millət vəkili, publisist Elmira Axundovanın "Heydər Əliyev : şəxsiyyət və zaman" kitabından istifadə olunub.)**






*Dövlət təhlükəsizliyi orqanlarında keçdiyi həyat məktəbi: Leytenantdan... DTK general-mayoruna qədər*



## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN BİRİNCİ DÖVRÜ (XX ƏSRİN 70-80-ci İLLƏRİ)





*Ötən əsrin 70-ci illərində Azərbaycan SSRİ-nin geridə qalmış ucqarlarından biri hesab olunurdu. O vaxtadək respublikaya rəhbərlik edənlər bununla barışır, vəziyyəti dəyişməyə heç bir cəhd göstərmirdilər. Bu xoşagəlməz tendensiya Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumuna qədər - Heydər Əliyev birinci katib seçilənədək davam etdi.*

*Heydər Əliyevin respublika rəhbərliyinə gəlişi ilə həyat ritmi dəyişdi: bütün sahələrdə görünməmiş canlanma və inkişaf, nəhəng tikinti-quruculuq işləri başlandı. Bakıda o dövr üçün nadir müəssisələr (məsələn, məişət kondisionerləri, dərin dəniz özülləri zavodları), paytaxtımıza bu gün də yaraşıq verən ictimai binalar ("Gülüstan" sarayı, Heydər Əliyev Sarayı) tikildi, nəhəng yaşayış massivləri (Yeni Əhmədli, Günəşli) salındı. Kənd təsərrüfatı məhsulları, xüsusən pambıq, üzüm, tərəvəz istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı da yaxşılaşdı, bir çox sosial layihələr həyata keçirildi. Siyasətşünaslar bu illəri haqlı olaraq Azərbaycanın dirçəliş və yüksəliş dövrü kimi səciyyələndirirlər.*

*Yaşlı nəslin yadında olar: Heydər Əliyevə qədər respublikanın birinci şəxsi, eləcə də digər vəzifə sahibləri kabinetdən kənara nadir hallarda çıxırdılar. Onlardan fərqli olaraq, Heydər Əliyev bölgələrə tez-tez səfərlər edir, insanlarla bilavasitə ünsiyyət qurur, onların problem və qayğıları ilə şəxsən maraqlanırdı. Onun alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri ənənəyə çevrilmişdi. Bu ağ-qara fotolar həmin anları, Ulu Öndərin birinci hakimiyyət dövrünün müəyyən məqamlarını özündə yaşadır, bizi xəyalən həmin illərə qaytarır.*






## NƏ QƏDƏR AZƏRBAYCAN VAR, NƏ QƏDƏR BU MİLLƏT VAR, HEYDƏR ƏLİYEV DƏ VAR OLACAQ, YAŞAYACAQ!



**Neçə illərdir ki, paytaxtımızın ən uca nöqtələrindən birində yerləşən Fəxri xiyabanda Heydər Əliyevin möhtəşəm, əbədiyyət simvolu olan abidəsi ucalır. Azərbaycana təşrif buyuran yüksək səviyyəli dövlət və siyasi xadimlər, görkəmli şəxslər, hər bir mötəbər qonaq bu abidəni ziyarət edərək xalqımızın Ulu Öndərinin xatirəsinə hörmət və ehtiramını bildirir.**

**Hər il dekabrın 12-də Fəxri xiyabanda böyük izdiham yaşanır. İnsanlar axın-axın Ulu Öndərin abidəsi önündən keçir, ruhu qarşısında baş əyirlər. Burada yaşanan izdiham xalqın öz böyük oğluna olan məhəbbət və ehtiramının ifadəsi olaraq fotolarda aydın əksini tapır. Onları seyr etdikcə tam əminlik yaranır ki, xalqın Heydər Əliyevə məhəbbəti onun özü kimi əbədidir. Nə qədər Azərbaycan var, nə qədər bu millət var, Heydər Əliyev də var olacaq, yaşayacaq!**

*«Mən öz mənalı həyatımın düz 60 ilini xalqımızın bu günü və sabahı ilə yaşamışam»*

****

*«Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!»*

****

*«Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam».*

****

*«Hər bir insan üçün Vətənə, torpağa sədaqət ən ülvi xüsusiyyətdir».*

**Heydər Əliyev,**
**Azərbaycan xalqının Milli Lideri**

## HEYDƏR ƏLİYEVİN HƏYATININ MOSKVA VƏ NAXÇIVAN DÖVRÜ (1982-1992-ci İLLƏR)

*Heydər Əliyev Siyasi Büronun üzvü seçiləndən bir qədər sonra Moskvaya vəzifəyə gedəndə Azərbaycanda insanlar çox sevinir, bir-birini təbrik edirdilər. Bu, iki amillə izah olunurdu. Birincisi, azərbaycanlının SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında yüksək mövqe və vəzifə tutması həqiqətən qürurverici hadisə idi. İkincisi, Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi Azərbaycanın xeyrinə işləyə bilərdi: onun bir əli Vətənin üstündə olacaqdı. İnsanlar bu düşüncələrində yanılmadılar. Heydər Əliyev artan nüfuzundan və mərkəzi hökumətdə ikinci şəxs olaraq vəzifə imkanlarından istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana mümkün qədər çox vəsait ayrılmasına, bir sıra irimiqyaslı layihələrin Bakıda həyata keçirilməsinə nail oldu. İttifaq miqyasında gördüyü nəhəng işlər, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırırdı. Obyektiv siyasətçilər hesab edirdilər ki, Heydər Əliyev Baş katib vəzifəsinə ən yaxşı namizəddir.*

*Sonra məlum hadisələr baş verdi. Mixail Qorbaçov siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi, ona qarşı həsəd və qısqanclıq hissləri baş qaldırdı. Ölkə rəhbərliyi ilə aralarında yaranmış ixtilaflar və ciddi fikir ayrılığı səbəbindən istefa verdi. Bununla eyni vaxtda Azərbaycanın qara günləri başladı. Onda da, indi də bir çoxları əminliklə deyirlər ki, əgər o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, nə Qarabağ, nə də 20 Yanvar hadisələri baş verməzdi.*

*Bu ağır günlərdə Ulu Öndər vətəni Azərbaycana qayıtdı. Kremlin köləsi olan rəhbərlik onun Bakıya yolunu kəsdiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana üz tutdu. Həmin vaxt çəkilmiş fotoşəkillərdə əhalinin onu necə coşqu ilə qarşıladığı, həyatının bəzi anları əksini tapıb. Heydər Əliyev ona bəslənilən ümidləri doğrultdu: Naxçıvanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Üçrəngli bayrağımız 70 ildən sonra ilk dəfə məhz Naxçıvanda ucaldıldı. Onun muxtar respublikaya rəhbərliyi dövründə qəbul olunmuş taleyüklü qərarlar Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. 1990-cı illərin əvvəllərində azadlıq və nicat küləkləri məhz Naxçıvandan əsirdi. Ağır günlər keçirən xalq gözünü Heydər Əliyevə dikmişdi.*











## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN İKİNCİ DÖVRÜ (1993-2003-cü İLLƏR)

*1993-cü ildə Azərbaycan tufanlı dənizdə yelkənsiz gəmiyə bənzəyirdi. Dalğalar bu gəmini hər an qayalara çırpıb batıra bilərdi. Son dərəcə mürəkkəb və ağır vəziyyətdə xalqın təkidli çağırışları ilə hakimiyyətə qayıdan Heydər Əliyev məsuliyyəti və xilaskarlıq missiyasını cəsarətlə çiyinlərinə götürdü. Azərbaycanı çətin sınaqlardan, siyasi fırtınalardan sağ-salamat çıxararaq sakit limana gətirə bildi. Separatizmin, dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə alaraq ölkəni parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Yenicə yaranmaqda olan nizami ordu ermənilərin torpaqlarımıza aramsız hücumlarını dayandıra bildi, Qarabağ müharibəsində atəşkəsə nail olundu.*

*Çətinlik isə bir deyildi, iki deyildi... Dövlət xəzinəsi tamam boşalmışdı. Ölkə iqtisadiyyatı keçid dövrü yaşayırdı. Sənayeni, kənd təsərrüfatını dirçəltmək uzun illərlə vaxt tələb etdiyindən qeyri-adi həll variantları tapmaq lazım idi. Opponentlərindən fərqli olaraq, Heydər Əliyev uğur açarının harada olduğunu bilirdi. Bilirdi ki, ölkəni düşdüyü çətin vəziyyətdən, dərin iqtisadi-sosial böhrandan yalnız neft gəlirləri ilə çıxarmaq olar. Neft isə dənizin dibində idi, onu çıxarmağa Azərbaycanın gücü çatmazdı. Ölkədə siyasi-ictimai sabitliyin hələ yetərincə möhkəm olmadığı bir vaxtda xarici şirkətlər riskə gedib Azərbaycan neftinə sərmayə qoyacaqdılarmı? Heydər Əliyev "Amoko", "BP", "Yunokal", "LukOyl", "Statoyl", "Ekson", "İtoçu" kimi nəhəng şirkətləri inandırmağı bacardı. Bu inamın əsasında təbii ki, ilk növbədə Heydər Əliyev şəxsiyyətinə olan etibar dayanırdı. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın inkişafının, gələcək uğurlarının başlanğıc nöqtəsi oldu. Bu müqavilədən əldə olunan ilk neftin Ulu Öndərdə necə böyük sevinc hissi doğurduğu yadınızdadırmı? Onun gözləri gülür, neftli əlini üzünə çəkir və bu unudulmaz an fotoobyektivin yaddaşına köçür.*

*Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü bu və digər taleyüklü hadisələrlə zəngindir. Fotoşəkillər bizi bir daha həmin tarixi günlərə qaytarır, bu dahi şəxsiyyətin titanik fəaliyyətinin ayrı-ayrı məqamlarını göz önündə canlandırır.*




